

# Dostluğa, qardaşlığa və ortaq milli dəyərlərə söykənən tərəfdaşlıq

## Azərbaycan, Türkmənistan və Özbəkistan arasındakı üçtərəfli əməkdaşlıq formatı münasibətlərdə yeni səhifə açır

**Avqustun 22-də Türkmənbaşı şəhərində keçirilən Türkmənistan Respublikası, Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında yüksəksəviyyəli görüş yalnız bu dövlətlər deyil, bütün türk dünyası üçün mühüm siyasi hadisəyə çevrildi. Bu görüş bir daha təsdiq etdi ki, türk dövlətləri onların inkişafına, əməkdaşlıq əlaqələrinin genişlənməsinə yol açan, o cümlədən qlobal və regional aktuallıq kəsb edən bütün məsələlərdə hər zaman ortaq mövqe nümayiş etdirirlər.**

### Türk dövlətləri müasir çağırışları düzgün dəyərləndirirlər

Sürətlə dəyişən və yenilənən regional və qlobal əməkdaşlıq imkanları olduqca mühüm və strateji coğrafiyada yerləşən türk dövlətlərinin qarşısında yeni prioritetlər formalaşdırır. Bu fonda görünən odur ki, türk dövlətləri çağdaş reallıqları və meydana çıxan çağırışları düzgün dəyərləndirərək, həm özlərinin inkişafına, həm də aralarındakı tərəfdaşlıq əlaqələrinin daha da güclənməsinə xidmət edən addımlar atırlar. Türk dövlətlərini birləşdirən Türk Dövlətləri Təşkilatı son illərdə fəaliyyətini daha da gücləndirərək nüfuzlu regional təşkilata çevrilib. Türk Dövlətləri Parlament Assambleyası, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu kimi qurumların fəaliyyəti sayəsində üzv ölkələr arasında əlaqələr sürətlə genişlənib.

Öz növbəsində Azərbaycanın həyata keçirdiyi layihələr istər regional, istərsə də, qlobal müstəvidə strateji məzmun daşımaqla, həm də türk dövlətlərinin beynəlxalq iqtisadi inteqrasiyasına, onların ixrac əməliyyatlarının çoxalmasına böyük təkan verib. Respublikamızın təşəbbüsü ilə ərsəyə gələn Bakı-Tbilisi-Qars dəmir yolu xətti Avropanı Asiya ilə birləşdirən nəhəng infrastruktur olmaqla bərabər, Mərkəzi Asiya dövlətlərinin ixrac imkanlarının genişlənməsinə də mühüm təsir göstərib. Azərbaycanın təşəbbüsü ilə Bakı-Tbilisi-Qars dəmir yolunun türk dünyasındakı iqtisadi əlaqələrə verdiyi töhfələr nəzərə alınaraq, ötürücülük qabiliyyəti daha da artırılacaq.

Azərbaycanın təşəbbüsləri ilə inşa edilən enerji kəmərləri də türk dövlətlərinin maraqlarına xidmət edir. Belə ki, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və "Cənub qaz dəhlizi" Azərbaycanla yanaşı, Türkmənistanın və Qazaxıstanın da Xəzər dənizindən hasil etdikləri karbohidrogen ehtiyatlarının ixracını həyata keçirir. Bununla da Orta Asiyanın türk dövlətləri alternativ marşrutlarla beynəlxalq bazarlara çıxış əldə edirlər. Bu kəmərlərin işə düşməsi Türkiyə dövlətinin də enerji təhlükəsizliyini möhkəmləndirib. Bütün bunlar Azərbaycanın türk dünyasına böyük töhfələridir. Göründüyü kimi, Azərbaycanın nəqliyyat və enerji dəhlizləri ilə bağlı həyata keçirdiyi layihələr həm də türk dövlətlərinin milli mənafelərinin qorunmasına xidmət edir, regional və qlobal proseslərdə türk dünyasının mövqelərinin güclənməsini şərtləndirir.

### Yeni əməkdaşlıq formatı hər üç dövlətə böyük dividendlər qazandıracaq

Avqustun 22-də Türkmənistan, Azərbaycan və Özbəkistan arasında yüksəksəviyyəli görüşün keçirilməsi türk dövlətləri arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edən mühüm siyasi təşəbbüsdür. Bu görüş üç türk dövləti arasındakı münasibətlərdə yeni səhifə açır, əlaqələrin gedişini yeni keyfiyyət mərhələsinə yüksəldir.

Azərbaycan Respublikası Özbəkistan və Türkmənistanla strateji tərəfdaşdır və son illər aralarında həm siyasi, həm də iqtisadi sahədə mühüm razılaşmalara imza atıblar. 2017-ci ilin avqustunda Azərbaycanla Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. 2021-ci ilin yanvar ayında iki dövlət arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalanıb. Ötən ay Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun respublikamıza səfəri də göstərmişdi ki, dostluq prinsiplərinə söykənən Azərbaycan-Türkmənistan münasibətləri uğurla inkişaf edir.

Eyni zamanda Özbəkistan türk dünyasında Azərbaycanla xüsusi münasibətləri olan qardaş dövlətdir. İki dövlət arasındakı əlaqələrdə Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin dostluq münasibətləri mühüm rol oynayır. Ötən ilin avqust ayında imzalanan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" isə iki dövlətin münasibətlərinin hansı səviyyəyə yüksəldiyini aydın göstərir.

İndi dost və qardaş ölkələr olan Azərbaycan, Türkmənistan və Özbəkistan arasında həm də yeni əməkdaşlıq formatı yaranır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi "Biz xalqlarımızın mədəni və tarixi yaxınlığına, ortaq dəyərlərə və strateji maraqlara əsaslanaraq, üç dost və qardaş dövlətin əməkdaşlığı tarixində yeni bir səhifə açırıq".

Avqustun 22-də Türkmənistanda olduqca məhsuldar keçən yüksəksəviyyəli görüşdə həm siyasi-iqtisadi, həm də mədəni-humanitar sahələrdə əməkdaşlığın müxtəlif aspektləri, çoxtərəfli qarşılıqlı fəaliyyət məsələləri müzakirə olunub. Məlum olduğu kimi Azərbaycan, Türkmənistan və Özbəkistanın əraziləri strateji baxımdan əhəmiyyətli coğrafiyaları əhatə edir. Bu baxımdan danışıqlar zamanı əsas mövzulardan biri nəqliyyat dəhlizlərinin və logistika infrastrukturlarının inkişaf etdirilməsi, milli nəqliyyat sistemlərinin inteqrasiyasının dərinləşdirilməsi olub.

Üç ölkənin energetika sahəsində əməkdaşlığının perspektivləri barədə də fikir mübadiləsi aparılıb. Karbohidrogen yataqlarının işlənməsi və hasil olunan elektrik enerjisinin ixracı üzrə perspektiv layihələrlə bağlı məsələlər nəzərdən keçirilib. O cümlədən liderlər hər üç dövlətin istehsal etdiyi məhsulların qarşılıqlı tədarükünün stimullaşdırılması ilə bağlı razılığa gəliblər. Həmçinin humanitar əlaqələrlə bağlı məsələlər, turizm və mədəni mübadilə sahələrində birgə proqramların qəbul olunması müzakirə edilib.

Bu görüş Azərbaycan, Türkmənistan və Özbəkistanın öz milli mənafeləri naminə strateji tərəfdaşlığın dərinləşdirilməsinə yönəlmiş möhkəm siyasi iradə nümayiş etdirdiklərini göstərdi. Görüş həm də verilən mühüm mesajlarla yadda qaldı və türk dövlətləri arasında qardaşlığın sarsılmaz olduğunu nümayiş etdirdi. Prezident İlham Əliyev bu görüşü "Bu, tarixi görüşdür, tarixi sammitdir, tarixi Zirvə görüşüdür", - deyə dəyərləndirdi.

Azərbaycan, Türkmənistan və Özbəkistanın coğrafi mövqeyini və onlar arasındakı iqtisadiyyat və nəqliyyat-kommunikasiya üzrə qarşılıqlı əlaqələri nəzərə alanda görürük ki, belə bir əməkdaşlıq formatının yaradılması bu türk dövlətlərinin hər birinə böyük dividendlər gətirəcək. Eyni zamanda bu əməkdaşlıq bütün türk dünyası üçün çox faydalı olacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 24 avqust (№178).- S.3.